**Azərbaycan dövləti bu gün özünün tarixi uğurlarından birinin – ərazi bütövlüyünün bərpasının ərəfəsindədir. Dövlət başçımızın, silahlı qüvvələrimizin və xalqımızın birlikdə apardığı bu qətiyyətli mübarizənin arzulanan nəticəsi uzaqda deyil. Bu əminliyimizin təməlində duran əsas arqumentlər dövlətimizin qüdrəti, Prezidentimizin qətiyyəti, ordumuzun peşəkarlığı, xalqımızın həmrəyliyi və beynəlxalq aləmdən heç zaman olmadığı qədər dəstək almağımızdır.**

***Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də qəbul etdiyi Azərbaycan Respublikasının Müstəqilliyi haqqında Konstitusiya Aktı ilə Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu bəyan edərək öz dövlət müstəqilliyini və suverenliyini beynəlxalq aləmə bildirdi. Qısa bir müddətdə dünya birliyi ölkələri və Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınmaqla o, beynəlxalq hüququn subyektinə çevrildi. Həmin gün tariximizə dövlət müstəqilliyinin bərpası günü kimi daxil oldu. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı, himni və gerbi dövlət atributları kimi qəbul edildi və onun yarandığı 28 may günü Respublika Günü kimi qeyd olunmağa başladı.***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Dövlət müstəqilliyimizin bərpasının iyirminci ildönümü haqqında" 21 yanvar 2011-ci il tarixli Sərəncamından**

fəaliyyətə başlaması böyük strateji uğur və Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası yolunda həlledici amil oldu.

Heydər Əliyevin müstəqilliyimizin qorunub saxlanılması və əbədiləşdirilməsi üçün atdığı ən mühüm addımlardan biri də ölkədə hüquq islahatlarına start verməsi idi. 1995-ci ildə müstəqil Azərbaycanın Konstitusiyasının qəbul edilməsi ilə ölkədə dövlət quruculuğu üçün zəruri hüquqi baza formalaşdı. Ölkəmizin daxili və xarici siyasət konsepsiyası beynəlxalq hüquq normalarına uyğun olaraq quruldu. Bu illər ərzində Azərbaycanda bütün istiqamətlərdə dövlət quruculuğu prosesi uğurla həyata keçirilmiş, dövlətçilik ənənələri zənginləşdirilmişdir.

# Hüquqi, demokratik və dünyəvi dövlətin qurulması xalqımızın tarixi nailiyyətidir



Biz fəxr edirik ki, ərazilərimizin bərpası uğrunda apardığımız möhtəşəm mübarizə dövlət müstəqilliyimizin bərpa edildiyi tarixin növbəti ildönümü ilə eyni vaxta düşür. İnanırıq ki, müstəqilliyimizin gələn ilin oktyabrında qeyd edəcəyimiz 30 illik tədbirlərindən bir neçəsi də işğaldan azad edilmiş Xankəndi və Şuşada keçiriləcək. Hələlik isə bu əlamətdar günü Milli Ordumuzun zəfər yürüşlərinin, qələbə soraqlarının fonunda qeyd edirik.

Xatırladaq ki, hələ ötən əsrin 70-ci illərindən başlayaraq Azərbaycanın böyük oğlu Heydər Əliyevin strategiyasına uyğun olaraq, respublikamızda həyata keçirilən genişmiqyaslı proqramlar müasir iqtisadi potensialın formalaşdırılmasına, sosial-mədəni həyatın canlandırılmasına və milli-mənəvi dəyərlərin dirçəldilməsinə yönəldilmiş və gələcək müstəqilliyimizin təmin olunması üçün zəmin hazırlamışdır.

Həmin əsrin 90-cı illərinin əvvəllərində – SSRİ-nin süqutunun başlandığı günlərdə bütün müttəfiq respublikalara müstəqillik əldə etmək imkanı yaranmışdı. Azərbaycan xalqı həmin günlərdə – 1991-ci il oktyabrın 18-də qəbul etdiyi "Azərbaycan Respublikasının Müstəqilliyi haqqında Konstitusiya Aktı" ilə Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu bəyan edərək, öz dövlət müstəqilliyini və suverenliyini beynəlxalq aləmə bildirmişdir. Qısa müddətdə dünya birliyi ölkələri və Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınmaqla, dövlətimiz beynəlxalq hüququn subyektinə çevrildi. Həmin gün tariximizə dövlət müstəqilliyinin bərpası günü kimi daxil oldu. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı, himni və gerbi dövlət atributları kimi qəbul edildi və onun yarandığı 28 May Respublika Günü kimi qeyd olunmağa başlandı.

Prezident İlham Əliyevin dediyi kimi, müstəqilliyimizin ilk illərindəki hərc-mərclik və xalqımızın maraqlarına zidd siyasət, iqtisadiyyatın zəiflədilməsi və milli sərvətlərin talan edilməsi dərin siyasi və iqtisadi-sosial böhranla nəticələnmişdi. Azərbaycan xalqının 1988–1993-cü illərdə düçar edildiyi fəlakətlərin və itkilərin miqyasını təsəvvür edəndə belə, insanı dəhşət bürüyür.

Həmin dəhşətlərin arasında nələr var idi? Ermənistandan qaçqınların axını, Qanlı Yanvar faciəsi, xalqımızın böyük zəhmət hesabına topladığı maddi və mənəvi sərvətlərin talan edilməsi, Xocalı soyqırımı, Şuşanın, Laçının, digər torpaqlarımızın işğal edilməsi, insanlarımızın yerindən-yurdundan didərgin salınması. Ancaq bütün bunlar olmaya da bilərdi. İndi ölkə ziyalılarının hamısı təəssüf hissi ilə deyir ki, əgər o dövrdə Azərbaycana Heydər Əliyev rəhbərlik etsəydi, düşmənlərimiz bu məkrli planlarının heç birini həyata keçirə bilməzdilər. Dövlətçiliyimizin müqəddəratının həll edildiyi 1993-cü ilin vahiməli iyun günlərində xalqın təkidli tələbi ilə Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı Azərbaycanı məhv olmaq fəlakətindən xilas etdi.

Ulu öndərin ölkə rəhbərliyinə qayıdışından sonra respublikamızda formalaşmağa başlayan yeni siyasi kurs vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı, separatçılıq meyillərinə son qoydu və Heydər Əliyevin dövlət quruculuğu siyasətinin gerçəkləşməsinə gətirib çıxardı.

Məlum olduğu kimi, həmin illərdə Azərbaycan dövlətinin iqtisadi durumu elə vəziyyətə düşmüşdü ki, bizim heç bir problemin aradan qaldırılmasına ümidimiz qalmamışdı. Çıxış yolunu ancaq ölkəyə xarici sərmayələrin gətirilməsində görmək mümkün idi. Xarici investorlar isə münaqişənin getdiyi və daxili sabitliyin olmadığı ölkələrə sərmayə yatırmırlar. Bütün bunları yaxşı bilən ulu öndər əvvəlcə ölkədə başlanmaqda olan vətəndaş müharibəsinin qarşısını aldı, sonra cəbhədə atəşkəsə nail oldu, daha sonra – 1994-cü ilin sentyabrında isə Xəzərin Azərbaycan sektorunun karbohidrogen ehtiyatlarının müştərək işlənməsi məqsədilə dünyanın aparıcı neft şirkətlərinin yaratdığı konsorsiumla Azərbaycan Dövlət Neft Şirkəti arasında "Hasilatın pay bölgüsü" adlı o zamana qədər misli görünməyən sazişin imzalanmasına nail oldu. Sonradan "Əsrin müqaviləsi" adlanan həmin sənəd Azərbaycanın neft strategiyasının reallaşmasına imkan verdi və Xəzər hövzəsində irimiqyaslı layihələrin uğurla həyata keçirilməsini təmin etdi. 2006-cı ildə Bakı–Tbilisi–Ceyhan neft kəmərinin, 2007-ci ildə Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin

2003-cü ilin payızından sonra isə gənc müstəqil Azərbaycan dövlətinin beynəlxalq aləmin əsas aktorlarından birinə çevrilməsi istiqamətində uğurlu addımlar atılır. Prezident İlham Əliyevin təşəbbüs və dəstəyi hesabına başa gələn böyük iqtisadi, enerji və nəqliyyat layihələri dünya dövlətləri üçün mühüm əhəmiyyət kəsb etməklə, regionun inkişafına layiqli töhfələr verir.

Danılmaz faktdır ki, Azərbaycan 155 ölkənin səsini qazanmaqla, dünyanın ən böyük və əhəmiyyətli qurumu olan Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilərkən beynəlxalq aləmdə sülh və təhlükəsizliyin təmin olunmasına, insan haqlarının müdafiəsinə mühüm töhfələr vermişdir. Paytaxtımız Bakı ən mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edir. Ölkəmizdə "Eurovision", Birinci Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, Formula-1 yarışları kimi bütün dünyanın diqqət mərkəzində olan mühüm mədəni və idman tədbirləri keçirilib. Təbii ki, bu gün dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə görülən işlər Azərbaycan xalqının və dövlətinin mənafeyinin ən yüksək səviyyədə qorunmasına yönəlmişdir.

Dövlətimizin dünyanın ən islahatçı ölkələrdən biri kimi tanınması, "Kosmik ailə"nin üzvünə çevrilməsi, Azərbaycan Ordusunun dünyanın ən güclü 50 ordusundan biri olması, Şanxaydan Londona qədər uzanan möhtəşəm naviqasiya layihəsinin ən mühüm halqalarından birinə çevrilməsi və bir çox digər uğurlarımız günün reallıqlarıdır. Ancaq düşünürük ki, müasir Azərbaycanın ən böyük reallığı, ən mükəmməl uğuru 30 il torpaqlarımızı işğal altında saxlayan azğın düşmənə öz yerini göstərməsidir. Bu gün dünyanın ən çox bəhs etdiyi siyasətçi Prezident İlham Əliyev, haqqında ən çox danışılan ordu isə Azərbaycan Silahlı Qüvvələridir. Allah hər ikisini qorusun!

***Dövlət müstəqilliyimizin bərpasının 29-cu ili mübarək olsun!***

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***